DOI: 10.5281/zenodo.14281931

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN HÜQUQ-MÜHAFİZƏ FƏALİYYƏTİ:

## hüquqi aspektlər və qanunvericilik əsasları

**Nəzrin Natiq qizi Kərimli,**
**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Hüquqşünaslıq fakültəsi, IV kurs tələbəsi.**
e-mail: kerimlinezrin879@gmail.com

*Məqalədə Azərbaycan Respublikasında hüquq-mühafizə orqanı kimi Dövlət Gömrük Komitəsinin fəaliyyəti nəzərdən keçirilir. Adıçəkilən dövlət qurumunun funksiyaları, hüquq və vəzifələri, eləcə də onun qanunvericilik əsasları barədə məsələlərə xüsusi diqqət yetirilir. Qeyd edilir ki, gömrük orqanları öz funksiyalarının yerinə yetirilməsi məqsədi ilə hüquq mühafizə orqanları daxil olmaqla, digər dövlət orqanları, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər.*

**Açar sözlər:** hüquq-mühafizə fəaliyyəti, gömrük orqanları, gömrük xidmətinin qanunvericilik əsasları, gömrük orqanlarının funksiyaları, hüquqi aspektlər, normativ hüquqi aktlar.

Hər şeydən əvvəl qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiyasına görə, ölkə ərazisində gömrük işinin həyata keçirilməsinə dair ümumi qaydalar dövlət tərəfindən müəyyən edilir (maddə 94) [1, s.24-25]. Belə ki, müvafiq dövlət orqanlarının fəaliyyət istiqamətləri qanunçuluğun və hüquq qaydalarının bilavasitə mühafizəsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi, cinayətkarlığa və digər xətalara qarşı mübarizə tədbirlərinin yerinə yetirilməsi və s. kimi konkret funksiyaların həyata keçirilməsinə yönəlmişdir. Hüquq qaydalarının və qanunçuluğun təmin edilməsi ilə yalnız, xüsusi olaraq, yuxarıdakı vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış aidiyyəti üzrə bir sıra orqanlar məşğul olurlar. Hüquq ədəbiyyatmda bu orqanlar – hüquq qaydalarını mühafizə edən orqanlar, yəni Azərbaycan Respublikasının Konstitusiyası, digər qanunvericilik və normativ hüquqi aktlarla müəyyən edilmiş dövlətin və cəmiyyətin, insanların və vətəndaşların hüquq və azadlıqlarını, yaşayış və fəaliyyət qaydalarını qorumağa qadir olan orqanlar adlandırılır [10, s.11-14].

“Hüquq qaydalarını mühafizə edən orqanlar” və “hüquq-mühafizə orqanları” anlayışları bir-birinə çox yaxın anlayışlardır. Lakin, onlar oxşar olsa da, tamamilə, eyni anlayışlar deyildir. Hüquq qaydalarını mühafizə edən bütün orqanları hüquq-mühafizə orqanları hesab etmək olmaz. Eyni zamanda, hüquq qaydalarını mühafizə edən bütün orqanlar hüquq-mühafizə orqanları kimi qəbul edilmir.Belə ki, hüquq-mühafizə fəaliyyəti və belə fəaliyyəti həyata keçirən orqanların dairəsi, sistemi haqqında müxtəlif mövqelər mövcuddur. Qanunvericilikdə hüquq-mühafizə orqanları anlayışı ilə bağlı dəqiq göstəriş yoxdur. Hüquq ədəbiyyatında hü-

quq-mühafizə fəaliyyətinə - dövlət orqanları tərəfindən hüquq normalarının pozuntulardan mühafizəsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması və onların üzərinə qoyulmuş hüquqi vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi üzrə funksiyalarının həyata keçirilmə forması kimi anlayış verilir [10, s.16]. Bu fəaliyyətin məzmununa aşağıdakılar aid edilir:

1. Hüquqpozmaların xəbərdar edilməsi üzrə tədbirlər;
2. Hüquq pozuntularının baş verdiyi halda işin bütün hallarının araşdırılması və həqiqətin müəyyən edilməsi;
3. Hüquq normalarının pozulması barədə konkret işlərin qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilməsi;
4. Hüquq pozuntusu baş verdikdə hüquqi məsuliyyətin reallaşdırılmasının təmin edilməsi və s.

Qeyd etməliyik ki, mühafizə funksiyasınm əsas təyinatı hüquqpozmaların və digər sosial birgəyaşayış qaydalarının pozulması hallarının qarşısını almaqdan ibarətdir. Hüquq-mühafizə fəaliyyəti dedikdə hüquq qaydalarının təmin edilməsi məqsədi ilə xüsusi səlahiyyətli orqanlar tərəfindən qanunlara dəqiq və dönmədən əməl etməklə, icrası məcburi olan hüquqi təsir tədbirlərinin tətbiq edilməsi yolu ilə həyata keçirilən dövlət fəaliyyəti başa düşülür. Hüquq-mühafizə fəaliyyəti müəyyən xüsusi səlahiyyətli orqanlar tərəfindən bilavasitə hüquqi təsir tədbirlərinin tətbiq edilməsi ilə həyata keçirilən fəaliyyətdir. Hüquq-mühafizə fəaliyyətinin, praktiki olaraq, aşağıdakı növləri fərqləndirilir [10, s.22]:

1. Konstitusiya nəzarəti;
2. Ədalət mühakiməsinin həyata keçirilməsi;
3. Prokuror nəzarəti;
4. Cinayətlərin aşkar edilməsi;
5. Əməliyyat-axtarış fəaliyyəti;
6. Dövlət təhlükəsizliyinin təmin edilməsi;
7. Məhkəmə qərarlarının icrası;
8. Mühafizə fəaliyyəti;
9. Cinayətlərin və digər xətaların xəbərdar edilməsi;
10. Yüksək keyfiyyətli (ixtisaslaşdırılmış) hüquqi yardım göstərilməsi və s.

Hüquq-mühafizə orqanları qanunvericiliklə müəyyən edilmiş fəaliyyət növlərini həyata keçirirlər. Belə ki, məhkəmə orqanları ədalət mühakiməsini həyata keçirir, prokurorluq orqanlarına ibtidai araşdırmaya prosessual rəhbərliyi və dövlət ittihamını müdafiə etmək funksiyası verilmişdir; əməliyyat-axtarış fəaliyyəti həm daxili işlər orqanları, həm milli təhlükəsizlik orqanları, həm də vergi, gömrük və bəzi digər orqanlar tərəfindən həyata keçirilir. Daxili işlər orqanları, eyni zamanda, polis haqqında qanunvericiliyə müvafiq olaraq, cinayətlərin ibtidai araşdırılması, əməliyyat-axtarış fəaliyyəti, hüquqpozmaların xəbərdar edilməsi vəzifələrini yerinə yetirirlər [7; 11, s.78]. Hüquq-mühafizə orqanlarının cinayətkarlığa qarşı mübarizə istiqamətində təşkilati-hüquqi fəaliyyət formalarından biri əməliyyat-axtarış fəaliyyətidir. Həmin orqanlar üzərinə düşən vəzifə və funksiyaları, əsasən, bu fəaliyyət növü vasitəsilə təmin edirlər. Əməliyyat-axtarış fəaliyyətinin üsul, metod, qüvvə və vasitələrinin tətbiqi cinayətlərin qarşısının alınması və açılmasında mühüm rol oynayır. Belə ki, narkotiklərin və silahların qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlıq, terrorçuluq, korrupsiya kimi cəmiyyət üçün yüksək dərəcədə təhlükəli təzahürlərin gizli xarakter daşıması, həmçinin maliyyə, texniki, mühafizə və s. təminatları onlara qarşı mübarizədə, əsasən, gizli qüvvə, vasitə, metod və formalardan istifadə edilməsinin zəruriliyini şərtləndirir.

Hüquq ədəbiyyatında hüquq-mühafizə orqanları dairəsi və ya sisteminə dair vahid fikir mövcud deyildir. Əksər müəlliflər hüquq-mühafizə orqanlarına aşağıdakı dövlət orqanlarını aid edirlər: məhkəmə, prokurorluq, daxili işlər orqanları, dövlət təhlükəsizliyi orqanları, vergi orqanları, gömrük orqanları, ibtidai araşdırma orqanları, ədliyyə orqanları [10, s.31].

Hüquq-mühafizə orqanlarının fəaliyyəti vətəndaşların, hüquqi şəxslərin və bütövlükdə dövlətin əsas hüquq və qanuni mənafelərinin müdafiəsinə yönəlmişdir. Məhz bu kontekstdə hüquq-mühafizə orqanları bir-birindən konkret vəzifə və səlahiyyətləri ilə fərqlənirlər. Məsələn, məhkəmənin bilavasitə vəzifəsi ədalət mühakiməsini həyata keçirməklə hüquqi mübahisələri həll etməkdən, prokurorluğun isə qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasma nəzarət, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirməkdən, dövlət ittihamınını müdafiə etməkdən ibarətdir. Bu konkret vəzifələri həll etməklə, həmin orqanlar fiziki və hüquqi şəxslərin, eləcə də dövlətin hüquq və qanuni mənafelərini müdafiə edirlər.

"Hüquq-mühafizə fəaliyyətinin" tərifinə uyğun olaraq, "hüquq-mühafizə orqanı" anlayışını da müəyyən etmək olar. Hüquq-mühafizə orqanı anlayışı aşağıdakı mühüm əlamətlərlə xarakterizə olunur:

– hüquq-mühafizə orqanının hüquqi statusu və fəaliyyəti dəqiq olaraq hüquqla nizamlanır;

– hüquq-mühafizə orqanının qarşısında fiziki və hüquqi şəxslərin, bütövlükdə cəmiyyətin və dövlətin hüquq və qanuni mənafelərinin mühafizəsi, qanunçuluğun və hüquq qaydalarının təmin edilməsi durur;

– bu vəzifələrin həll edilməsi üçün qanunla müəyyən edilmiş potensial hüquq və imkanlar verilmişdir.

Beləliklə, göstərilən əlamətləri diqqətə çəkərək qeyd edə bilərik ki, fiziki və hüquqi şəxslərin, bilavasitə dövlətin hüquq və qanuni mənafelərini müdafiə etmək, qanunçuluğa riayət etmək, habelə hüquq qaydalarını təmin etmək səlahiyyətinə malik olan, hüquq-mühafizə fəaliyyətini həyata keçirən təşkilat (təsisat) hüquq-mühafizə orqanı adlanır.

Müxtəlif hüquq-mühafizə orqanlarının təşkili və fəaliyyətinin hüquqi tənzimlənməsi müvafiq qanunvericilik aktlarında təsbit edilmişdir. Belə qanunvericilik aktları sırasında "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında" qanunları, İnzibati Xətalar Məcəlləsini (İXM), İnzibati-Prosessual Məcəlləni (İPM), Cinayət Məcəlləsini (CM), Cinayət-Prosessual Məcəlləni (CPM), Gömrük Məcəlləsini (GM), Vergi Məcəlləsini (VM) və s. normativ hüquqi aktları göstərmək olar [14].

Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikasının Gömrük Komitəsi (DGK) yaradıldı [8;13].Lakin ölkədə yaranmış gərgin ictimai-siyasi vəziyyət gömrük xidmətinin fəaliyyətinə də mənfi təsir göstərirdi. Qeyri-peşəkar kadrlar, sovetlərdən qalma gömrük qanunvericiliyi, köhnə inzibati binalar, ən sadə texniki vasitələri belə olmayan keçid məntəqələri – bütün bunlar o dövrün gerçəklikləri idi.1993-cü ildə respublika siyasi rəhbərliyinə gələn Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin əsasını qoydu. Həmin vaxtdan başlayaraq, respublikanın ictimai-siyasi həyatında baş verən müsbət dəyişikliklər, siyasi və iqtisadi sahələrdə islahatların ardıcıl şəkildə aparılması, dövlətin bütün ölkələrlə bəra-

bərhüquqlu və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığını nəzərdə tutan vahid iqtisadi strategiyanın nəticəsində çevik gömrük siyasətinin həyata keçirilməsini tələb edirdi.

Gömrük xidmətinin inzibati bölməsi olan və vahid sistem təşkil edən gömrük orqanları hüquq-mühafizə orqanı kimi formalaşdı. Gömrük orqanlarının fəaliyyəti qanunun aliliyi, insan hüquq və azadlıqlarının qorunması, şəxslərin qanun qarşısında hüquq bərabərliyi, aşkarlıq, peşəkarlıq, xidmətdə nizam-intizam prinsiplərinə əsaslanır. Gömrük orqanları öz fəaliyyətlərində gömrük qanunvericiliyini rəhbər tuturlar. Gömrük orqanları gömrük işi ilə əlaqədar vəzifələrinin yerinə yetirilməsi məqsədi ilə hüquq-mühafizə orqanları daxil olmaqla, digər dövlət orqanları, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Gömrük orqanları müstəqil surətdə, yaxud digər hüquq- mühafizə orqanları cəlb edilməklə, gömrük nəzarəti zonasında rejim qaydalarına riayət olunmasına nəzarət etmək, gömrük xidmətinin infrastruktur obyektlərinin mühafizə sistemini təşkil etmək, gömrük sərhədinin qorunması məqsədi ilə başqa tədbirləri həyata keçirmək hüququna malikdir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 17-ci maddəsinə görə, Azərbaycan Respublikasında gömrük işi gömrük orqanları tərəfindən yerinə yetirilir. Gömrük xidmətinin inzibati bölməsi olan və vahid sistem təşkil edən gömrük orqanları hüquq-mühafizə orqanlarıdır [2, s.40]. Həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnaməsinin 1.1-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra – Komitə) bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, gömrük işi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq-mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır [8, s.72-75].

DGK-nın hüquq-mühafizə orqanı statusu ilə fəaliyyət bir neçə amillə şərtlənir ki, onlar aşağıdakılardan ibarətdir [9]:

– birinci, gömrük orqanları icraedici və sərəncamverici orqan kimi, yüksək dövlət orqanlarının (Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikasının Nazirlər Kabineti) qərarlarını icra etmək üçün, gömrük işi ilə əlaqədar normativ aktlar qəbul etmək hüququna malikdir. Bu normativ aktlar mallar və nəqliyyat vasitələrinin, habelə vətəndaşların gömrük sərhədini keçməsi ilə əlaqədar verilir ki, bu da, gömrük orqanlarının inzibati hüquqi fəaliyyətdə iştirakı deməkdir;

– ikinci, malların keçirilməsi ilə əlaqədar, gömrük orqanlarının vəzifəli şəxsləri ilə xarici iqtisadi fəaliyyətin (XİF) iştirakçıları arasındakı gömrük, inzibati, cinayət, dövlət, beynəlxalq, maliyyə, mülki və sair sahələrdəki hüquqi münasibətlərin tənzimlənmiş normalarla qorunması, gömrük orqanlarının inzibati-prosessual, cinayət-hüquqi və cinayət-prosessual kimi hüquq-mühafizə formalarından istifadə etmək səlahiyyətinin olması, onun hüquq-mühafizə orqanı sayılmasını zəruri edir. Gömrük işi sahəsində XİF iştirakçıları ilə gömrük işçiləri arasındakı münasibətləri tənzimləyən xeyli sayda normativ aktlar vardır ki, bunlar da dövlət idarəetmə mexanizminin bir hissəsi sayılır. Gömrük orqanları ilə XİF iştirakçıları arasındakı münasibətlər, həddən çox mürəkkəb xarakter daşıması ilə yanaşı, beynəlxalq, dövlət, inzibati, iqtisadi,

mülki, əmək, maliyyə, torpaq, nəqliyyat, dəniz, hava, cinayət, cinayət-prosessual, hərbi və sair hüquq sahələrinin tənzimlənmə sferalarına da aiddir.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti dövlət fəaliyyətinin bir sahəsi olub, gömrük hüquq münasibətləri sferasında dövlətin daxili və xarici funksiyalarını yerinə yetirərkən ortaya çıxır. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin məqsədi gömrük işi sahəsində dövlət, inzibati, iqtisadi, mülki və digər hüquq sahələrinin normalarının tətbiqi, icrası, istifadəsi və onlara riayət olunmasıdır. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti müxtəlif formalarda həyata keçirilir: inzibati-hüquqi; inzibati-prosessual; cinayət-hüquqi; cinayət-prosessual; əməliyyat-axtarış və s.

Gömrük orqanları hüquq-mühafizə orqanı kimi müəyyən vəzifələrin daşıyıcısıdır. Bu sırada aşağıdakıları fərqləndirə bilərik [8]:

1) qanunvericilikdə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının iqtisadi və milli təhlükəsizliyini təmin etmək;

2) gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparmaq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozondağıdıcı maddələrin, xalqların mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət hüquqları obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların (fauna) və bitki növlərinin (flora), başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq;

3) milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması sahəsində tədbirlərin həyata keçirilməsində müvafiq dövlət orqanlarına yardım göstərmək;

4) insan alverçilərinin, habelə insan alveri qurbanlarının gömrük sərhədindən keçməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almaq və s.

Göstərilən vəzifələrin icrası ilə bağlı gömrük orqanları hüquq-mühafizə orqanı kimi müəyyən hüquqlara malikdir:

1. Malların və nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin bunlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərini yerinə yetirməsini yoxlamaq, gömrük prosedurlarına nəzarəti həyata keçirmək, hüquqpozmaların operativ surətdə qarşısını almaq, əməliyyat-axtarış fəaliyyətini sürətləndirmək və digər məqsədlər üçün gömrük orqanlarının sistemi daxilində mobil qruplar təşkil etmək;

2. Təhqiqatı və istintaqı gömrük orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxsləri müəyyənləşdirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

3. Cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhqiqat və ibtidai istintaq aparmaq;

4. Müvafiq qanunvericiliyə uyğun olaraq, inzibati xətalarla bağlı işlər üzrə icraat aparmaq, bu işlərə baxmaq və inzibati xətalar törətmiş şəxsləri məsuliyyətə cəlb etmək, habelə gömrük işi sahəsində hüquqazidd əməllər törədilməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almaq;

5. Gömrük işi sahəsində cinayətlərin qar-

şısını almaq, belə cinayətləri törətmiş, habelə onların törədilməsində şübhəli bilinən şəxslərin saxlanılması və ya təqib edilməsi məqsədi ilə idarə, müəssisə və təşkilatlara (xarici dövlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat, rabitə vasitələri istisna edilməklə) məxsus olan rabitə və nəqliyyat vasitələrindən son zərurət vəziyyətində istifadə etmək;

Müstəqil surətdə, yaxud digər hüquq-mühafizə orqanları cəlb edilməklə, gömrük nəzarəti zonasında rejim qaydalarına riayət olunmasına nəzarət etmək, gömrük xidmətinin infrastruktur obyektlərinin mühafizə sistemini təşkil etmək, gömrük sərhədinin qorunması məqsədi ilə başqa tədbirləri həyata keçirmək və s.

Təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, gömrük orqanları tərəfindən təhqiqat və istintaqın aparılması, gömrük qaydaları əleyhinə olan inzibati xətalar üzrə icraatın aparılması və işlərə baxılması, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi, habelə gömrük orqanlarının təhlükəsizliyini təmin edən tədbirlərin görülməsi barədə müvafiq müddəalar gömrük qanunvericiliyində (GM, maddə 17-20) təsbit edilmişdir [2, s.40-41]. Həmin maddələrin məzmununa nəzər salaq.

Maddə 17. Gömrük orqanları tərəfindən təhqiqat və istintaqın aparılması. Gömrük orqanları gömrük işi sahəsində cinayətlərə dair işlər üzrə təhqiqat və istintaq orqanlarıdır. Gömrük orqanları tərəfindən təhqiqat və istintaqın aparılması və bu zaman yerinə yetirilən prosessual hərəkətlər Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə tənzimlənir.

Eyni zamanda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 207-209-cu maddələrində nəzərdə tutulmuş cinayət işləri üzrə və 206-cı maddədə nəzərdə tutulmuş cinayətə dair iş üzrə isə bu işə başladıqda ibtidai istintaqının aparılmasının Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur. Gömrük orqanları tərəfindən təhqiqatın və istintaqın aparılması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə tənzimlənir [4]. İbtidai istintaqı gömrük orqanlarının səlahiyyətinə aid olan cinayətlər aşağıdakılardır [3, s.165-168]:

1. Qaçaqmalçılıq (CM, maddə 206);
2. Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma (CM, maddə 206-1);
3. Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının ərazisinə qaytarılmaması (CM, maddə 207);
4. Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama (CM, maddə 208);
5. Gömrük ödənişlərinin ödənilməsindən yayınma (CM, maddə 209).

Gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsi, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə aşağıdakı malların keçirilməsi qaçaqmalçılıq hesab olunur:

a) narkotik vasitələrin, psixotrop, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv və partlayıcı mallar;

b) silahlar, partlayıcı qurğular və onlar üçün sursatı (soyuq, yivsiz ov silahları və onların patronlarından başqa);

c) nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, həmin silahların hazır-

lanması üçün istifadə oluna biləcək material və avadanlıqlar, strateji əhəmiyyətli xammalın;

d) Azərbaycan Respublikasından çıxarılması üçün müvafiq qaydalar müəyyən edilmiş ölkədə yaşayan xalqların və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların;

e) külli miqdarda, yaxud dövlət orqanının vəzifəli şəxsi tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə, yaxud gömrük nəzarətinin müəyyən formalarından azad olunmuş ayrı-ayrı malların və nəqliyyat vasitələrinin keçirilməsi üçün müvəkkil edilmiş şəxs tərəfindən, yaxud kontrabanda ilə məşğul olmaq üçün təşkil edilmiş bir qrup şəxs tərəfindən keçirilən digər malların;

f) Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmış Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların qüvvədə olan qanunvericiliyə müvafiq olaraq qaytarılması məcburi olan hallarda və müəyyən olunmuş müddətdə geri qaytarılmadıqda da qaçaqmalçılıq sayılır və cinayət qanunvericiliyi ilə cəzalandırır.

Gömrük orqanları tərəfindən təhqiqatın və istintaqın aparılması ilə bağlı qeyd edə bilərik ki,təhqiqat ilkin istintaqın forması kimi qaldırılası cinayət işi üzrə mövcud qanunvericilikdə müəyyən edilmiş qaydalar əsasında həyata keçirilir. Təhqiqat orqanları ilk olaraq cinayətin baş verdiyini aşkarlayır, iş qaldırır, cinayətin izlərinin aşkar edilməsi üçün vacib hərəkətlər edir, şübhəli şəxsi saxlayır və cinayətin qarşısını alırlar. Əgər aparılan təhqiqat işi, həmin iş üzrə ilkin istintaqı vacib edirsə, onda təhqiqat işi müstəntiqə verilir. Əks halda, təhqiqat orqanı işin istintaqını axıra çatdırmalıdır. Yadda saxlamaq lazımdır ki, ilkin istintaqın vacib olduğu işlərdə, təhqiqat işi ümumi xarakter daşıyır, daha doğrusu, təhqiqat orqanları, yalnız "isti izlər üzrə" vacib istintaq hərəkətləri lazım gəldikdə və müstəntiqin işə başlaya bilmədiyi halda təhqiqat aparırlar. Əgər cinayət işini müstəntiq qaldırıbsa və icraata özü qəbul edibsə, onda təhqiqat aparılmır, təhqiqat orqanları isə müstəntiqin tapşırığı ilə əməliyyat-axtarış, nadir hallarda isə, istintaq hərəkətlərində iştirak edirlər. Gömrük orqanları aşağıdakı cinayət işləri üzrə təhqiqat və istintaq orqanı sayılır (CPM, maddələr 38, 45 və 47) [4, s.60, 68-70]:

1. Qaçaqmalçılıq (CM, maddə 206);

2. İncəsənət, tarixi və arxeoloji sərvət sayılan əşyaların Azərbaycan ərazisinə gətirilməməsi (CM, maddə 207);

3.Gömrük ödənişlərinin ödənilməsindən yayınma (CM, maddə 209).

Gömrük orqanları sistemində təhqiqat və ibtidai istintaq işlərini Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məsul şəxsi apara bilər. Təhqiqat aparan şəxs, qəbul etdiyi qərarın istintaq hərəkətləri baxımından əsaslığına, qanunauyğunluğuna və vaxtında aparılmasına görə məsuliyyət daşıyır. Təhqiqatçı aşağıdakı hallarda işin istintaqında iştirak edə bilməz:

1) əgər o, zərərçəkmiş, şikayətçi, cavabdeh, müstəntiqdirsə, habelə həmin işdə ekspert, mütəxəssis və tərcüməçi kimi iştirak edirsə;

2) əgər o, zərərçəkmişin, şikayətçinin, cavabdehin və ya onların nümayəndələrinin, habelə şübhəli şəxslərin və ya onların nümayəndələrinin qohumudursa;

3) əgər o, bu və ya digər dərəcədə, bilavasitə və ya dolayısı ilə aparılan işdə maraqlıdırsa.

Respublikamızın gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların, avadanlıqların, strateji əhəmiyyətli xammalın, mədəni sərvət olan əşyaların və s. qaçaqmalçılıq yolu ilə keçirilməsi, bundan başqa incəsənət, tarixi və arxeoloji sərvət olan əşyaların müəyyən edilmiş müddətdə Azərbaycana qaytarılmaması, şərti maliyyə vahidinin iki min mislindən yuxarı olan məbləğdə gömrük ödənişlərinin ödənilməsindən yayınma və s. kimi hallar cinayət xarakterli hesab olunurlar.

Cinayət-Prosessual Məcəllənin 214-cü maddəsinin mahiyyətindən aydın olur ki, təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə aparılır:

a) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;

b) böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Buradan belə bir nəticəyə gəlmək olar ki, ibtidai instintaq geniş mənada iki formada – ibtidai istintaq və təhqiqat formasında aparılır. İbtidai istintaqın aparılmasını nizamlayan cinayət-prosessual qanunvericiliyinin normaları, kiçik istisnalarla, demək olar ki, eynilə təhqiqatın gedişatını da nizamlayır. Təhqiqat müstəqil şəkildə çox az miqdarda cinayət işlərində ibtidai istintaqın əvəzində aparılır. Cinayət-Prosessual Məcəllənin 215.1-ci maddəsində deyildiyi kimi, böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılan təhqiqat istisna olmaqla, bütün cinayət işləri üzrə ibtidai istintaqın aparılması məcburidir. CPM-in 214-3-cü maddəsinə müvafiq olaraq, bu kateqoriyalı cinayət işləri üzrə cinayətin əlamətləri mövcud olduqda təhqiqat orqanı cinayət işini başlayır və cinayət-prosessual qanunvericiliyini rəhbər tutaraq cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək, habelə cinayət törətməkdə şübhə edilən şəxsi tapmaq məqsədi ilə əməliyyat-axtarış tədbirləri və təxirəsalınmaz istintaq hərəkətləri aparır. Təxirəsalınmaz istintaq hərəkətləri dedikdə, gömrük orqanlarının təhqiqatçıları tərəfindən baxışın, axtarışın, götürmənin, şəxsi müayinənin, şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsi, zərər çəkmiş şəxsin və şahidlərin dindirilməsi və digər hərəkətlərin həyata keçirilməsi başa düşülür [12]. Cinayət-Prosessual Məcəllənin 236.1-ci maddəsinə müvafiq olaraq, cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə gömrük orqanlarının təhqiqatçısı və müstəntiqi hadisə yerinin, binaların, sənədlərin, əşyaların və digər predmetlərin baxışını aparır. Cinayətin mühakimə icraatında, bir qayda olaraq, predmetlərin və sənədlərin baxışı müvafiq istintaq hərəkətləri aparılarkən (hadisə yerinin baxışı, axtarış, götürmə) həyata keçirilir. Baxış nəticəsində predmet və ya sənəd barədə əldə edilən məlumatlar həmin istintaq hərəkəti protokolunda qeyd edilir. Predmetin və ya sənədin yerindəcə baxışını aparmaq mümkün olmadıqda, müstəntiq onları qəbul etməsi barədə müvafiq akt tərtib edərək, qablaşdırır və möhürləyir.

CPM-in 242-246-cı maddələrində axtarış və ya götürmənin bir istintaq hərəkəti kimi mahiyyəti, məqsədi və iş üçün əhəmiyyəti geniş şərh edilmişdir. Bu normativ hüquqi aktda göstərilmişdir ki, əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı yaşayış, xidməti və

ya istehsalat binasında, digər yerdə, yaxudhər hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin olmasını güman etməyə kifayət qədər əsas verdikdə müstəntiq axtarış apara bilər. Axtarış və ya götürmə, bir qayda olaraq, məhkəmənin qərarı əsasında aparılır. Məhkəmə axtarış və ya götürmənin aparılması haqqında qərarı müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı olduqda çıxara bilər. Axtarış və götürmə zamanı, CPM-in 244.1-ci maddəsinin tələbinə görə azı 2 (iki) hal şahidlərinin iştirakı məcburidir. Şəxsi müayinə, cinayət-prosessual qanunda verilmiş şərhə görə, məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə müstəntiq tərəfindən aparılır. Cinayət-Prosessual Məcəllənin 215.1-ci maddəsinin tələbinə görə gömrük orqanları CM-in 206 və 207-ci maddələri ilə qaldırılmış cinayət işləri üzrə təhqiqatı 10 (on) gün müddətində, amma CM-in 209-cu maddəsi ilə qaldırılmış cinayət işi üzrə təhqiqatı tam şəkildə aparmağa səlahiyyətlidirlər.

Azərbaycan Respublikasının gömrük orqanları törədilmiş, törədilən və ya törədilməsinə hazırlıq görülən cinayətlər haqqında ərizə və məlumatlara baxanda, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi surətdə riayət etməlidirlər. Belə ki, CPM-in 207.1.2-ci maddəsinə müvafiq olaraq, gömrük orqanlarının təhqiqatçıları və müstəntiqləri zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) aldıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar isə 20 (iyirmi) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlamanı apararaq nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edir.

Maddə 18. Gömrük orqanları tərəfindən gömrük qaydaları əleyhinə olan inzibati xətalar üzrə icraatın aparılması və işlərə baxılması. Bu maddənin məzmununda göstərilir ki, gömrük orqanları tərəfindən gömrük qaydaları əleyhinə olan inzibati xətalar üzrə icraatın aparılması, həmin işlərə baxılması və bu zaman yerinə yetirilən prosessual hərəkətlər, inzibati xətalar törətməyə görə tətbiq edilən inzibati tənbehin növləri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənir [5; 6].

Gömrük qaydalarının pozulması şəxsin qanunazidd əməlləri (hərəkət və ya hərəkətsizliyi) nəticəsində törədilmiş aşağıdakı qayda pozuntularıdır:

1) mal və nəqliyyat vasitələrinin gömrük sərhədini (gömrük rejimərinin tətbiqi də daxil olmaqla) keçməsi ilə bağlı pozuntular;

2) onlara gömrük nəzarəti ilə əlaqədar;

3) bu mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı;

4) gömrük ödənişlərinin qoyulması və ödənilməsi ilə əlaqədar;

5) gömrük güzəştlərinin verilməsi və onlardan istifadə ilə bağlı pozuntular.

Qeyd etməliyik ki, hüquq pozuntularının əlamətləri olan - subyekt, obyekt, subyektiv tərəflər və obyektiv tərəf bütünlükdə gömrük qaydalarının pozulmasının tərkib elementləri sayılır. Azərbaycan Respublikasının İnzibati

Xətalar Məcəlləsinin 258-ci, 260-cı, 261.2-ci, 263-cü, 264-cü, 265.0.1-ci, 265.0.3-265.0.5-ci, 266-cı maddələrinin adında, habelə 266.1-266.3-cü, 267-ci, 268-ci, 269-cu, 272-ci, 273-cü, 275-ci, 276-cı, 277-ci, 282.2 ci, 287-ci, 288-ci, 291-ci, 292-ci və 326-cı maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 357.0.3-cü maddəsinə müvafiq olaraq, müəyyən edilir ki, həmin Məcəllənin 258-291-ci, 293-295, 292 ci və 326 maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır. İXM-in XXXVII fəsli "Gömrük qaydaları əleyhinə olan inzibati xətalar" adlanır [5, s.292-307]. Belə ki, İnzibati Xətalar Məcəlləsi ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan və inzibati məsuliyyətə səbəb olan əməl inzibati xəta adlanır. Qəsdən və ya ehtiyatsızlıq üzündən törədilməsindən asılı olmayaraq, hər bir hərəkət və hərəkətsizlik inzibati məsuliyyətə səbəb olduğu təqdirdə inzibati xəta sayılır.

Gömrük qaydalarının pozulması haqqında işlərin icraatı və onlara baxılmasının mərhələləri barədə qeyd etməliyik ki, göstərilən mərhələlər bir neçə etapdan keçsə də, bu iş üzrə inzibati icraatın sərbəst prosessual hissəsi olaraq, bir-biri ilə çox bağlıdır və özünəməxsus prosessual funksiyaları, məqsəd və tapşırıqları vardır. Gömrük qaydalarının pozulması haqqında iş üzrə inzibati proses aşağıdakı mərhələlərdən ibarətdir:

1) işin başlanması və onun inzibati istintaqı;

2) işə baxılma və gömrük qaydalarının pozulması işi üzrə qərarın çıxarılması;

3) gömrük qaydalarının pozulması haqqında iş üzrə şikayətvermə, protest və qərara yenidən baxma;

4) gömrük qaydalarının pozulması üzrə Azərbaycan Respublikası gömrük orqanlarının qoyduğu məsuliyyətin icrası.

GM-in növbəti maddəsi belə adlanır: Maddə 19. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti. Burada göstərilir ki, gömrük orqanları təhqiqatının və istintaqının aparılması səlahiyyətlərinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədi ilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirirlər. Gömrük orqanlarında əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və əməliyyat-axtarış fəaliyyətini tənzimləyən digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir [9, s.110-111].

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun I maddəsinə görə, əməliyyat-axtarış fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla bu Qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsidir. II maddəyə əsasən, əməliyyat-axtarış fəaliyyəti insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilir. III maddədə isə əməliyyat-axtarış fəaliyyətinin aşağıdakı vəzifələri sadalanır [7, s.52]:

1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;

2) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;

3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;

4) məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması;

5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

Göstərilən bu vəzifələrdən ilk üçü bilavasitə gömrük orqanlarının işi ilə əlaqədar ola bilir. Belə ki, "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının I maddəsinə əsasən, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının daxili işlər, ədliyyə (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), fövqəladə hallar nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bu orqanların səlahiyyətləri daxilində, əməliyyat-axtarış subyektlərinin tələbatları və aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilir:

– poçt, teleqraf və digər göndərişlərin yoxlanılmasını Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, beynəlxalq göndərişlərin yoxlanılmasını həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirirlər.

Mövcud qanunvericiliyə görə, Azərbaycan Respublikası gömrük orqanları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səs-yazmadan, kino və fotoçəkilişlərdən, həmçinin vətəndaşların həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edə bilər. Gömrük orqanlarının əməliyyat bölmələrinin əməliyyat-axtarış fəaliyyətinin istiqamətləri Azərbaycan Respublikası gömrük orqanları əməliyyat-axtarış fəaliyyətini aşağıdakı istiqamətlərdə aparırlar:

1) gömrük orqanlarının şəxsi təhlükəsizliyini təmin etmək üçün aparılan əməliyyat axtarış fəaliyyəti;

2) gömrük işi sahəsində qaçaqmalçılıq və digər cinayətlərlə mübarizə məqsədi ilə aparılan əməliyyat-axtarış fəaliyyəti.

Qeyd etməliyik ki, gömrük orqanlarında həyata keçirilən əməliyyat-axtarış fəaliyyəti ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi məşğul olur.

GM-də təsbit olunmuş digər maddə isə – Maddə 20. Gömrük orqanlarının təhlükəsizliyini təmin edən tədbirlər adlanır. Sözügedən maddədə müəyyən olunmuşdur ki, gömrük orqanlarının, onların vəzifəli şəxslərinin təhlükəsizliyini təmin etmək üçün gömrük orqanları qanunvericiliklə nəzərdə tutulmuş qaydada zəruri tədbirlər həyata keçirirlər. Gömrük orqanları bu tədbirlərin həyata keçirilməsi üçün digər hüquq-mühafizə orqanları, eləcə də başqa dövlətlərin gömrük xidmətləri ilə qarşılıqlı əməkdaşlıq edirlər.

Beləliklə, qeyd edə bilərik ki, Azərbaycan Respublikasında hüquq-mühafizə orqanı kimi Dövlət Gömrük Komitəsinin fəaliyyəti həm elmi-nəzəri kontekstdə, həm də praktik cəhətdən mühüm əhəmiyyətə malikdir.

**İstifadə edilmiş mənbələr**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,"PG" nəşriyyatı, 2014, 52 s.
2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2014, 232 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, 348 s.
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2016, 784 s.
5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2016, 392 s.
6. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2016, s.369-472.
7. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı,"Hüquq ədəbiyyatı" nəşriyyatı, 2011, 84 s.
8. Gömrük hüququ. Dərslik / Kol.müəlliflər: Novruzov Q.N.,Qəmbərov H.D., Hüseynova F.E. Bakı,"Zərdabi Nəşr" MMC nəşriyyat-poliqrafiya müəssisəsi, 2021, 592 s.
9. Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsaslar / Kol.müəlliflər: Əliyev E.Ə., Əliyev V.İ., Gülmalıyev Ü.S. Bakı, "Kooperasiya" nəşriyyatı, 2015, 816 s.
10. Qəfərov M.Ş., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik (Əlavə və dəyişikliklərlə 3-cü nəşr). Bakı, Qanun Nəşriyyatı, 2012, 600 s.
11. Əliyev E.Ə. Polis hüququ. Dərslik.Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr. Bakı, "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 552 s.
12. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası Daxili İşlər Orqanlarının Əməliyyat-Axtarış Fəaliyyəti Kafedrası "Cinayət-axtarış hüququnun əsasları" fənni üzrə tədris Proqramı / Tərtib edənlər: F.Muradov, N.Salmanzadə. Bakı, "Mütərcim" TNP Mərkəzi, 2015, 32 s.
13. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi – www.customs.gov.az
14. URL: www.e-qanun.az

# ПРАВООХРАНИТЕЛЬНАЯ ДЕЯТЕЛЬНОСТЬ ГОСУДАРСТВЕННОГО ТАМОЖЕННОГО КОМИТЕТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ:

## правовые аспекты и законодательные основы

**Назрин Натиг кызы Керимли,**
**Академия Государственного Таможенного Комитета Азербайджанской Республики, Юридический факультет, студентка IV курса.**
Электронная почта: kerimlinezrin879@gmail.com

В статье рассматривается деятельность Государственного таможенного комитета как правоохранительного органа Азербайджанской Республики. Особое внимание уделено функциям, правам и обязанностям указанного государственного учреждения, а также его законодательной базе. Отмечается, что в целях выполнения своих функций таможенные органы взаимодействуют с другими государственными ор-

ганами, юридическими и физическими лицами, в том числе правоохранительными органами.

**Ключевые слова:** правоохранительная деятельность, таможенные органы, законодательные основы таможенной службы, функции таможенных органов, правовые аспекты, нормативные правовые акты.

## LAW ENFORCEMENT ACTIVITY OF THE STATE CUSTOMS COMMITTEE OF THE REPUBLIC OF AZERBAIJAN: legal aspects and legislative bases

**Nazrin Natig girl Karimli,**
**Academy of the State Customs Committee of the Republic of Azerbaijan, Faculty of Law, 4th year student.**
E-mail: kerimlinezrin879@gmail.com

The activity of the State Customs Committee as a law enforcement body in the Republic of Azerbaijan is reviewed in the article. Special attention is paid to the functions, rights and duties of the mentioned state institution, as well as its legislative basis. It is noted that customs bodies interact with other state bodies, legal entities and individuals, including law enforcement agencies, in order to fulfill their functions.

**Key words:** law enforcement activity, customs bodies, legislative bases of customs service, functions of customs bodies, legal aspects, normative legal acts.

## AZERBAYCAN CUMHURİYETİ DEVLET GÜMRÜK KOMİTESİ'NİN YASAL UYGULAMA FAALİYETİ: yasal yönler ve yasal dayanaklar

**Nazrin Natig kızı Karimli,**
**Azerbaycan Cumhuriyeti Devlet Gümrük Komitesi Akademisi Hukuk Fakültesi 4. sınıf öğrencisi.**
E-posta: kerimlinezrin879@gmail.com

Makalede Azerbaycan Cumhuriyeti'nde kolluk kuvvetleri organı olarak Devlet Gümrük Komitesi'nin faaliyetleri gözden geçirilmektedir. Söz konusu devlet kurumunun görev, hak ve görevleri ile mevzuat dayanaklarına özel önem verilmektedir. Gümrük organlarının, görevlerini yerine getirmek amacıyla kolluk kuvvetleri de dahil olmak üzere diğer devlet kurumları, tüzel kişiler ve bireylerle etkileşimde bulunduğu belirtilmektedir.

**Anahtar kelimeler:** kolluk kuvvetleri, gümrük organları, gümrük hizmetinin yasal dayanakları, gümrük organlarının işlevleri, hukuki yönler, normatif hukuki düzenlemeler.